Axundov Ruslan Natiq oğlu,
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin
Əmək və ekologiya hüququ kafedrasının qiyabi doktorantı
E-mail: akhundovruslan09@gmail.com
Ünvan: Bakı, Akademik, 33 Zahid Xəlilov küçəsi

UOT: 349.2
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.1128

ƏMƏK HÜQUQUNDA MÜDDƏT ANLAYIŞI HAQQINDA

Açar sözlər: *işçi, işəgötürən, əmək, əmək hüququ, müddət, zaman, iddia müddəti.*

Ключевые слова: *работник, работодатель, труд, право на труд, срок время, исковая давность.*

Keywords: *employee, employer, labor, labor law, period, time, claim period.*

Giriş

Əmək hüququnda müddət anlayışının izahına keçməzdən öncə «zaman və «müddət» anlayışlarının (kateqoriyalarının) nisbətinə toxunmağı məqsədəmüvafiq hesab edirik. Çünki «zaman» kateqoriyasının çoxmənalı olduğunu nəzərə alaraq, qeyd olunan hər iki kateqoriyanın nisbətini müəyyənləşdirmək lazımdır. Belə ki, ümumfəlsəfi mənada yanaşdıqda zaman (fiziki və ya təqvim) materiyanın mövcudluq formalarından biri, dünyadakı bütün sistemlərin və proseslərin mövcudluq müddətini və vəziyyətlərinin dəyişmə ardıcıllığını ifadə edən əsas fəlsəfi kateqoriyadır [22, s. 101].

Əsas hissə

A.Şükürov qeyd edir ki, zaman hərəkətdə olan materiyanın mövcudluğunun real formasıdır [9, s. 246].

V.M.Kərimovun fikrincə, zaman maddi obyektlərin və proseslərin sürəkliliyini, axıcılığını, inkişaf prosesindəki ardıcıllıq qaydasını, müxtəlif dəyişmə, inkişaf mərhələlərinin bir-birindən ayrı salınmasını, hadisələrin səbəb – nəticə münasibətlərini, onların genetik əlaqələrini və s. ifadə edir. Zamanı ölçmək üçün saniyə, dəqiqə, saat, ay, il və s. ölçü vahidlərindən istifadə olunur [6, s. 177].

Bu mənada zaman geri dönməz, təkrarlanmaz, qaçılmazdır, şüurdan kənarda və ondan asılı olmayaraq obyektiv şəkildə mövcuddur. Eyni zamanda, o, öz-özlüyündə və maddi dəyişikliklərdən kənarda mövcud deyil, çünki müddətə malik olmayan, keçmişdən gələcəyə doğru dəyişməyən maddi sistemlərin və proseslərin mövcudluğu mümkün deyil.

M.Fərhadoğlu qeyd edir ki, məkan və zaman varlığın, materiyanın mövcudluğunun obyekti bütün cisim və proseslər müəyyən məkan və zamanda mövcuddur. Məkan – maddi cisimlərin və hadisələrin müəyyən yer tutumuna ma-

lik olmasını, cisimlər arasında xüsusi surətdə yerləşməsini ifadə edir. Zaman isə cisim və hadisələrin müəyyən ardıcıllıq və sürəkliklə davam etməsini, dövrlər, mərhələlər üzrə inkişaf etməsi xassəsini ifadə edir [7, s. 132].

Azərbaycan dilinin izahlı lüğətlərinə görə, «zaman» sözü vaxt, müddət mənalarını ifadə edir [3, s. 431; 5, s. 640].

Beləliklə, zamanı maddi dünyanın və hərəkət edən materiyanın atributiv xüsusiyyəti kimi müəyyən etmək olar. Bu xüsusiyyət, birincisi, maddi dünyanın fasiləsiz, başlanğıcı və sonu olmayan obyektiv real mövcudluğunda, ikincisi isə bütün konkret maddi obyektlərin, proseslərin və hadisələrin faniliyində ifadə olunur [23, s.232].

Azərbaycan dilinin izahlı lüğətinə əsasən «müddət» sözü bir işin, hadisənin başlanması ilə qurtarması arasındakı, yaxud bir şey üçün müəyyən edilmiş vaxt, zaman mənalarını ifadə edir [4, s.284; 5, s. 407].

Yuxarıda qeyd olunanlara əsasən müddət zaman çərçivəsində uzanma, bir şeyin mövcudluq davamlılığı kimi müəyyən edilir, baxmayaraq ki, müddət prosesləri bir tərəfindən müxtəlif cür qəbul edilir, üstəlik, zamanın bir çox xüsusiyyətləri öz əhəmiyyətini yalnız belə subyektiv qavrayış əsasında əldə edir. Məhz buna görə də müasir fəlsəfi fikrin inkişafı ilə sıx bağlı olan zamanın müəyyən edilməsinə yanaşmaları nəzərə almaq lazımdır.

Məsələn, N.N.Trubnikov qeyd edir ki, zamanı ümumi, universal anlayış kimi istifadə edən fəlsəfədən fərqli olaraq, təbiət, texniki və ictimai elmlərdə xüsusi zaman əlaqələri və münasibətləri öyrənir [21, s. 11]. Tədqiqatçılar materiyanın hər bir hərəkət forması üçün xüsusi məkan və zamanın mövcudluğu qənaətinə gəlirlər.

Son onilliklər ərzində həm təbiətşünaslar, həm də filosoflar tərəfindən zaman tiplərinin (formalarının) belə müxtəlifliyi ideyası dəfələrlə qeyd edilmişdir və bu gün də o, kifayət qədər geniş yayılmışdır. Belə ki, məsələn, bioloji zamanın özünəməxsusluğu «bioloji saatın» (orqanizm daxilindəki kimyəvi reaksiyaların tənzimləyicilərinin) mövcudluğu hesab edilir [11], sosial məkan və zamanın xüsusiyyətləri isə ictimai həyatın təşkilində və fəaliyyətində görülür.

«Sosial zaman» anlayışı ilk dəfə sosiologiya çərçivəsində nəzərdən keçirilmiş, terminin özü isə sosioloji problemlərə dair nəzəri işlərdə geniş yayılmışdır. V.M.Kərimovun fikrincə, sosial zaman ictimai proseslərin, adamların həyatındakı tarixi dəyişikliklərin ölçüsüdür [6, s. 185].

Tədqiqatçılar sosial zamanın əsas funksiyalarını qeyd etmişlər: təminedici, tənzimləyici, qarşılıqlı əlaqələndirici, qiymətləndirici, ölçü funksiyası.

H.R.İmanovun fikrincə, bioloji planetar – kosmik zamandan fərqli olaraq sosial zaman qeyri-bərabər halda axır… Sosial zamanın strukturu mürəkkəbdir. Bu struktura fərdin, kollektivlərin, birliklərin, millətlərin, dövlətlərin, bütün bəşəriyyətin zaman komponentləri daxildir. Bunların hər birinin zamanı, həyat tempi öz xüsusiyyətinə malik olub, bir-birindən fərqlənirlər [8, s. 142-145].

V.A.Artyemov sosial zamanı insan fəaliyyəti ilə bağlı olan zaman; cəmiyyətin bir sosial sistemlər məcmusu kimi mövcudluq və inkişaf zamanı, insandan ictimai-iqtisadi formasiyaya və bütövlükdə insan cəmiyyətinə qədər, insanların ictimai mövcudluq zamanı, yəni onların bu fəaliyyəti prosesində daxil olduqları maddi fəaliyyət və münasibətlər kimi müəyyən edir [10, s. 9].

Bununla belə, temporal proseslərin öyrənilməsinə dair yanaşmaların müxtəlifliyinə baxmayaraq, hüquqi gerçəkliyin bu və ya digər aspektlərini təhlil edərkən tədqiqatçılar çox vaxt

saat, sutka, il və s. kimi fiziki (təqvim və ya astronomik) zamanın əlamətlərindən çıxış edirlər. Eyni zamanda dövlət və hüquq nəzəriyyəsi və sahəvi hüquq elmləri, habelə sahələrarası fənlər öz problemlərinin spesifikliyinə tətbiqən zaman əlaqələrini və münasibətlərini tədqiq edirlər. Bu zaman sosial davranışın zaman göstəriciləri bütün sahələr tərəfindən tənzimlənir, belə tənzimlənmənin ən geniş yayılmış aləti isə hüquqi müddətlərdir. Bununla əlaqədar olaraq, tədqiq olunan kateqoriyalarının ümumfəlsəfi və xüsusi-hüquqi anlaşılmasındakı bir sıra fərqləri nəzərə almaq lazımdır, çünki fəlsəfə üçün insan təcrübəsinə əlçatmaz olan daha geniş ümumiləşdirmə xarakteri xas olur, sahəvi hüquq elmlərində isə insanın həyatı və praktiki fəaliyyəti prosesində ona birbaşa təsir edən hüquqi reallığın ayrı-ayrı hissələri tədqiq edilir.

Yuxarıda qeyd etdik ki, «müddət» terminin anlayışı, onu bir işin, hadisənin başlanması ilə qurtarması arasındakı, yaxud bir şey üçün müəyyən edilmiş vaxt, zaman kimi xarakterizə edir [5, s. 284; 6, s. 407]. Deməli, bütövün bir hissəsi kimi, müddətlər yuxarıda qeyd olunan temporal xüsusiyyətlərlə bilavasitə şərtlənir. Müddət miqdarı (kəmiyyəti) zamanı müəyyən etməyə, hüquqi aspektdə isə ictimai münasibətləri qaydaya salmağa, bu və ya digər hüquqi nəticələrin baş vermə anını müəyyən etməyə imkan verir. Yuxarıda qeyd olunanlara yekun vuraraq belə bir qənaətə gəlirik ki, zaman və müddətin nisbəti – bu, ümumi (zamanın axını) və xüsusi (müddətin axını), obyektiv (zamanın axını) və subyektiv (insanların iradəsinin müəyyən bir müddətin axınına təsiri) arasındakı nisbətdir. Burada keçirilən hüquqi kateqoriyanın müəyyən edilməsinə «geniş» və «dar» yanaşmaların mövcudluğudur.

Belə ki, ümumi hüquq nəzəriyyəsi və sahəvi hüquq elmləri tədqiqatçılarının əksəriyyəti «müddət» hüquqi kateqoriyasını xarakterizə zamanın «anları» («müddət – dövrlər», «müddət – anlar») terminlərindən istifadə edirlər [19, s. 5]. Lakin bəzi alimlər, məsələn, A.V.Jqunova və M.M.Jukovski müddətə dar mənada yanaşaraq başqa mövqe tuturlar. Mülki hüquqda müddətləri tədqiq edən A.V.Jqunova qeyd edir ki, müddətlərin xarakterik xüsusiyyəti zaman daxilində uzanmasıdır. Anın isə belə uzanması, davamlılığı yoxdur və o, zaman içində hər hansı bir konkret nöqtəni, anı təmsil edir. Buna görə də müəllif hesab edir ki, zaman içindəki an müddət deyil, sonuncu – bu, zaman kəsiyidir, an isə – bunda sadəcə bir nöqtədir [13, s. 7].

Göstərilən nəticə, yəqin ki, «an» terminin fəlsəfi anlaşılmasının ikiliyi ilə şərtlənir, bu termin hansısa obyektin, onun xüsusiyyətinin, münasibətinin, xarakteristikasının, obyektin həyatının real (ən kiçik) mövcudluq intervalı kimi nəzərdən keçirilir. Eyni zamanda, an – bu formal, mücərrəd bir hadisədir, onu uzanmanın formasına və ya fazasına, başqa sözlə desək, sonuncunun heç bir ölçüsü olmayan, mütləq sıfıra yaxın bir nöqtəyə sıxılmasına gətirib çıxarmaq olar. Sonuncu mənа – bu, kinematikada xüsusi əhəmiyyətə malik olan zəruri və faydalı abstraksiyadır (noumen), həmçinin dinamikada o, hüquqi gerçəkliyin spesifikliyini, hüquqda müddətlərin xüsusi əhəmiyyətini nəzərə almır [22, s. 274].

Beləliklə, müddəti bütövün – zamanın bir hissəsi kimi nəzərdən keçirərkən, nəzərə almaq lazımdır ki, bu hissə həm müəyyən bir davamlılıq dövrü, həm də an (çox qısa bir zaman aralığı, ən qısa davamlılıq intervalı və ya mövcudluq müddəti, lakin eyni zamanda məhz zaman hissəsi) ola bilər.

İ.A.Xasanov «zaman anı» və «an» terminlərini bölməyi (ayırmağı) təklif edir və hesab edir ki, anı maddi dünyanın obyektlərinin

və proseslərinin bir-birini əvəz edən vəziyyətləri ilə əlaqələndirmək məqsədəuyğundur, «anlar» dedikdə isə zamanın son dərəcə kiçik intervalları başa düşülməlidir. Obyektlərin və proseslərin vəziyyətləri müxtəlif dərəcədə davamlılığa malik olduğu üçün, «anlar» müxtəlif ölçülərə malik ola bilər və «anlar» heç də davamlılığın tamamilə olmaması ilə eyni deyildir [23, s. 259].

Hüquqda müddətləri tədqiq edən alimlər ona həmin hüquq sahəsi qarşısında olunan vəzifələr nəzərə alınmaqla daha çox hüquq münasibətləri və hüquqi faktlar təlimi nöqteyi-nəzərdən toxunurlar. Bu zaman «müddət» hüquqi kateqoriyasını zaman proseslərinin bir hissəsi və ölçüsü, hüquqi hadisələrin obyektiv mövcudluq forması və eyni zamanda qanun, müqavilə və ya insanların digər iradi hərəkətləri ilə nəzərdə tutulmuş hüquqi nəticələrin baş verməsinə səbəb olan, hüquq münasibətləri və hüquqi şüurun mühərriki olan hüquq və vəzifələrin hərəkətinin başlanğıc nöqtəsi kimi nəzərdən keçirmək olar.

Onu da qeyd edək ki, hal-hazırda hüquqi faktlar sistemində müddətlərinin yeri məsələsi mübahisəli olaraq qalmaqdadır. Tədqiq olunan hadisənin mürəkkəbliyi və çoxplanlılığı onun təbiətinin müəyyən edilməsinə bir çox yanaşmaların mövcudluğunu şərtləndirib, baxmayaraq ki, tədqiqatçıların əksəriyyəti zamanın axınının bariz obyektivliyi ilə əlaqədar olaraq müddətləri fakt – hadisələr kimi düzgün təsnifləşdirirlər. Lakin müddət bəzən qəbul edilmiş təsnifatdan kənarda nəzərdən keçirilir.

Belə ki, görkəmli sivilist alim V.P.Qribanov obyektiv (zaman) və subyektiv (müddət) nisbətinə əsaslanaraq müddəti nə nisbi, nə mütləq, nə də hərəkət adlandırmır (çünki müddətin axını insanların iradəsindən və fəaliyyətindən asılı olmayan zaman axınının xüsusi bir halıdır) və o, belə bir nəticəyə gəlir ki, hüquqi faktlar sistemində müddətlərə xüsusi bir yer (hadisələr və hərəkətlər arasında orta bir şey kimi) ayrılmalıdır [12, s. 250-251].

Digər rus sivilist alimi E.A.Suxanov iddia edirdi ki, müddətlər maddi dünyanın müxtəlif hadisələrinin və proseslərinin mövcudluq formaları olduğu üçün göstərilən hadisələri və prosesləri forma (müddətlər) və məzmun (hadisələr və proseslər) kimi qarışdırmaq olmaz. Maddi müddətlərin bəziləri davamlılıq və ya maddi proseslərin mərhələləri ilə (məsələn, insanın müəyyən yaşa çatması) digərləri isə illər, aylar, sutkalar və s. ilə hesablandığı üçün birinciləri hüquqi fakt – hadisələrə aid etmək, ikinciləri isə ayrıca hüquqi faktlar qrupuna ayırmaq lazımdır [20, s. 73].

Ə.B.Hacıbəyli yazır: «Hüquqi təbiətinə görə, müddətlər hüquq faktlarının xüsusi kateqoriyasını təşkil edir. Hərəkətlərdən və hadisələrdən fərqli olaraq onun ikili təbiəti vardır. O, bir yandan insan iradəsindən asılı olmayaraq davam edən zamanla (vaxtla) bağlıdırsa, başqa yandan insan iradəsinin təsirinə məruz qalır: müddət müqavilə tərəflərinin iradəsi ilə müəyyən edilə bilər, onun axını dayandırıla və ya bərpa edilə bilər [2, s. 854].

Elmi mübahisələrin digər hissəsi O.A.Krasavçikov tərəfindən təklif olunan hadisələrin mütləq və nisbiyə bölünməsinin müddətlərə tətbiqi məsələsinə həsr olunmuşdur. Belə ki, V.B.İsakov tərəfindən qeyd edilmişdir ki, müddəti mütləq hadisələrə aid etmək olmaz, çünki onun keçməsi (keçməməsi) bir hüquqi fakt kimi obyektiv və subyektiv faktorların qarşılıqlı təsiri ilə bağlıdır. O, nisbi hadisə də deyil (sonuncu halda obyektiv və subyektiv faktorlar səbəbli qarşılıqlı təsir göstərir, insanın hərəkətləri obyektiv xarakterli qanunauyğunluqlar toxumasına «hörülür»). Müddətin keçməsində qarşılıqlı təsir xarakteri fərqlidir, formaldır. Subyektiv faktorun əhəmiyyəti ondan ibarətdir ki, o, obyektiv pro-

sesin kəsiklərini fiksasiya edir. Bu hüquqi faktı «şərt-hadisə» adlandırmaq olar [15, s. 74].

Beləliklə, problemin mübahisəli olmasına, ilk növbədə, müddətin tərkibində subyektiv kriteriyanın mövcudluğu təsir etmişdir. Halhazırda hüquqi faktların təsnifatında müddətin yeri məsələsi açıq qalır, lakin O.A.Krasavçikov tərəfindən təklif olunan sistem, əgər problemi başqa cür nəzərdən keçirsək, tamamilə istifadə edilə bilər. Xüsusilə, hüquqi faktın universallığını qeyd edən A.V.Kruçinin nöqteyi-nəzəri diqqətəlayiqdir. Müəllifin fikrincə, bu tərkibə daxil olan elementlər daimidir, deməli, fakt-hərəkətlər və fakt-hadisələr obyektə, subyektə, obyektiv və subyektiv cəhətlərə malikdir. Subyektiv komponentin mövcudluğu müddətin fakt-hadisə kimi tövsifinə mane olmur [18, s. 28-32].

Y.B.İsayevanın fikrincə, fakt-müddətin nisbi hadisələr qrupuna mənsubiyyətinin əsaslandırılmasında «müddət insan tərəfindən müəyyən edilib, bu, onun zaman faktoru ilə nisbət vasitəsilə həyata keçirdiyi fəaliyyəti qaydaya salmaq məqsədilə insanın ixtisarıdır» qənaəti kifayət deyildir. Belə halda bütün hüquqi faktlar oxşar xarakter əldə edir, çünki onlar insan tərəfindən hüquqi cəhətdən vacib, hüquqi nəticələr doğuran hallar kimi təsbit edilir və bir çox hadisələr və proseslərə nisbətləndirilir [14, s. 78-79].

Müddət kateqoriyası hüququn bütün sahələrində tətbiq edilməsinə baxmayaraq heç bir normativ hüquqi aktda, o cümlədən Azərbaycan Respublikasının Əmək Məcəlləsində (bundan sonra qısaca olaraq AR ƏM) bu anlayışın leqal tərifi mövcud deyildir. Bu da alimlər arasında fikir ayrılığının yaranmasına gətirib çıxarır.

S.A.Komkov əmək hüququnda müddət dedikdə, əmək haqqında qanunvericilikdə, lokal normativ hüquqi aktlarda, sazişlərdə və müqavilələrdə, əmək münasibətlərinin hüquqi tənzimlənməsində dövlət, işəgötürən və işçilər (onların nümayəndələri) tərəfindən istifadə olunan, subyektlərin obyektiv mövcud zamanın subyektlərarası hüquqi modelini başa düşür [7, s. 15]. L.S.Kokovanın fikrincə, bu tərif bir qədər qəliz görünür; o, bir tərəfdən əmək hüququ subyektlərinin lazımsız yerə konkretləşdirilməsi ilə, digər tərəfdən isə əmək hüququnun tənzimlənməsində dövlətin rolunun qabardılması ilə yüklənmişdir. Xüsusilə nəzərə alsaq ki, müasir mərhələdə dövlətin rolu ikilidir: bir tərəfdən dövlət əmək hüququnun müstəqil subyekti kimi çıxış edir, digər tərəfdən isə əmək hüququnun digər subyektləri üçün təminat rolunu oynayır. Yuxarıda verilmiş tərifdən bu mənalardan hansının nəzərdə tutulduğu aydın deyil. Bundan əlavə, lokal normativ aktlardan sonra sazişlərin adını çəkən müəllifin mövqeyi də tam anlaşılan deyil, çünki söhbət sosial tərəfdaşlıq münasibətlərindən gedirsə, sazişlər hüquqi aktlar olsalar da, onlar lokal normativ aktlardan daha yüksək səviyyədə bağlanır. Əgər onlar lokal normativ aktlardan sonra sadalanırsa, onda ümumiyyətlə hansı sazişlərin nəzərdə tutulduğu qeyri-müəyyən qalır [16, s. 12].

Əmək hüququnda müddət anlayışı hüququn digər sahələri ilə müqayisədə bəzi xüsusiyyətləri ilə fərqlənir, ən azından ona görə ki, əmək və onunla bilavasitə sıx əlaqədar olan münasibətlərin tənzimlənməsi əmək qanunvericiliyi və digər normativ hüquqi aktlarla, o cümlədən əmək hüquqi normalarını ehtiva edən lokal normativ aktlarla həyata keçirilir. Lakin əmək hüququnda müddət – ümumi hüquqi müddətin bir növüdür, ona görə də sonuncunun (ümumi hüquqi müddətin) bütün xüsusiyyətləri ona da xas olmalıdır. Beləliklə, əmək hüququnda müddətə aşağıdakı tərifi vermək mümkündür: «Əmək hüququnda müddət – əmək qanunvericiliyi, sazişlər, lokal normativ aktlar, kollektiv və əmək müqavilələri ilə müəyyən edilən, başlanması və ya başa çatması müəyyən hüquqi nəticələrin yaranması, yaxud müəyyən hüquqi hərəkətlərin

icrası ilə bağlı olan zaman kəsiyidir (dövrüdür, anıdır)».

Nəticə

Aparılmış araşdırma göstərir ki, zaman və müddət anlayışları mahiyyət etibarilə qarşılıqlı əlaqəli olsa da, eyni məzmunu ifadə edən kateqoriyalar deyildir. Zaman obyektiv reallığın və hərəkətdə olan materiyanın mövcudluq forması kimi ümumi və fasiləsiz xarakter daşıdığı halda, müddət həmin zamanın müəyyən hissəsini, kəsiyini və ya davamlılıq intervalını ifadə edir. Bu baxımdan müddət zamanın hüquqi münasibətlərin tənzimlənməsi məqsədilə konkretləşdirilmiş forması kimi çıxış edir.

Tədqiqat zamanı müddətin hüquqi təbiətinə dair elmi ədəbiyyatda mövcud olan müxtəlif yanaşmaların təhlili göstərir ki, müddətin hüquqi faktlar sistemində yeri məsələsi mübahisəli olaraq qalır. Müddətin həm obyektiv zaman axını ilə bağlı olması, həm də müəyyən hallarda insan iradəsinin təsirinə məruz qalması onun hüquqi fakt-hadisə, xüsusi hüquqi fakt və ya hadisə ilə hərəkət arasında aralıq kateqoriya kimi qiymətləndirilməsinə səbəb olmuşdur. Bununla belə, müddətin insan iradəsindən asılı olmayaraq obyektiv zamanın axını ilə şərtlənməsi onun əsas mahiyyətini təşkil edir. İnsan iradəsi isə yalnız müəyyən müddətin hüquqi baxımdan seçilməsi, təsbit edilməsi və bəzi hallarda onun axınına hüquqi təsir göstərilməsi baxımından əhəmiyyət kəsb edir.

Əmək hüququ münasibətləri baxımından müddət xüsusi əhəmiyyət daşıyır. Əmək münasibətlərinin yaranması, dəyişdirilməsi və xitamı, əmək hüquqlarının həyata keçirilməsi, vəzifələrin icrası, müəyyən hüquqi hərəkətlərin yerinə yetirilməsi və hüquqi nəticələrin yaranması bir çox hallarda konkret zaman çərçivələri ilə əlaqələndirilir. Bu baxımdan əmək hüququnda müddət yalnız zamanın ölçü vahidi deyil, həm də əmək münasibətlərinin sabitliyini, müəyyənliyini və hüquqi tənzimlənməsini təmin edən mühüm hüquqi vasitədir.

Eyni zamanda müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsində və əmək münasibətlərini tənzimləyən digər normativ hüquqi aktlarda müddət anlayışının ümumi leqal tərifinin verilməməsi bu kateqoriyanın hüquqi mahiyyətinin müəyyənləşdirilməsində nəzəri və praktiki çətinliklər yaradır. Əmək hüququnda müddətin xüsusiyyətlərinin ayrıca hüquqi kateqoriya kimi müəyyənləşdirilməsi həm normativ tənzimləmənin ardıcıllığına, həm də hüquq tətbiqetmə təcrübəsində müddətlərin düzgün hesablanmasına və hüquqi nəticələrinin müəyyən edilməsinə xidmət edə bilər.

Beləliklə, əmək hüququnda müddəti ümumi hüquqi müddətin xüsusi növü kimi qəbul etmək məqsədəuyğundur. Onun əsas xüsusiyyəti ondan ibarətdir ki, müəyyən zaman kəsiyinin başlanması və ya başa çatması əmək münasibətləri sahəsində konkret hüquqi nəticələrin yaranmasına, dəyişməsinə və ya xitamına səbəb olur. Bu baxımdan əmək hüququnda müddət – əmək qanunvericiliyi, sazişlər, lokal normativ hüquqi aktlar, kollektiv və əmək müqavilələri ilə müəyyən edilən, başlanması və ya başa çatması müəyyən hüquqi nəticələrin yaranması, yaxud müəyyən hüquqi hərəkətlərin həyata keçirilməsi ilə bağlı olan zaman kəsiyi (dövrü və ya anı) kimi xarakterizə edilə bilər.

Nəticə etibarilə, müddət institutunun əmək hüququnda nəzəri və praktiki baxımdan daha dəqiq müəyyənləşdirilməsi əmək münasibətlərinin zaman amili üzrə hüquqi tənzimlənməsinin təkmilləşdirilməsinə, əmək hüquq və vəzifələrinin həyata keçirilməsində müəyyənliyin təmin edilməsinə və hüquqi nəticələrin yaranma anının düzgün müəyyən olunmasına mühüm töhfə verə bilər.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. – Bakı: Hüquq Yayın Evi, – 2026. – 400 s.

2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin elmi-praktik kommentariyası. 5 cilddə, I cild / Dos. B.H.Əsədovun redaktəsi ilə. –Bakı: Hüquq Yayın Evi, – 2017. – 896 s.

3. Azərbaycan dilinin izahlı lüğəti: 3 cilddə, I cild / Prof. A.Axundovun redaktəsi ilə. – Bakı: Çıraq, – 1997. – 452 s.

4. Azərbaycan dilinin izahlı lüğəti: 3 cilddə, II cild / Prof. A.Axundovun redaktəsi ilə. – Bakı: Çıraq, – 1999. – 412 s.

5. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, IV cild / Prof. Ə.Orucovun rəhbərliyi və ümumi redaktəsi ilə. – Bakı: Şərq-Qərb, – 2006. – 712 s.

6. Fəlsəfə (ali məktəblər üçün dərslik) / Prof. F.Ramazanovun elmi redaktorluğu ilə. – Bakı: Azərnəşr, – 1997. – 376 s.

7. Fərhadoğlu M. Fəlsəfənin əsasları; Dərs vəsaiti: – Bakı: Maarif, – 1996. – 392 s.

8. İmanov H.R. Fəlsəfə (kursu): Dərs vəsaiti. – Bakı: Turan evi, – 2005. – 420 s.

9. Şükürov A. Fəlsəfə: Ali məktəblər üçün dərs vəsaiti: – Bakı: Elm, – 1997. – 384 s.

10. Артемов В.А. Социальное время. Проблемы изучения и использования: Монография / Отв. ред. Ф.М.Бородкин. – Новосибирск: Наука, – 1987. – 238 с.

11. Войтенко В.П. Время и часы как проблема теоретичсекой биологии // – Вопросы философии, – 1985. №1.

12. Грибанов В.П. Осуществление и защита гражданских прав: Монография. – М.: Статут, – 2000. – 412 с.

13. Жгунова А.В. Сроки в Советском гражданском праве: Автореф. дисс. …канд. юр. наук. – Свердловск, 1971. – 19 с.

14. Исаева Е.В. Процессуальные сроки в гражданском процессе: Учебно-практическое пособие. – М.: Волтерс Клувер, – 2005. – 224 с.

15. Исаков В.Б. Фактический состав в механизме правового регулирования: Монография. – Саратов; Изд-во Саратовского ун-та, – 1980. – 128 с.

16. Кокова Л.С. Сроки в трудовом праве: Дисс. …канд. юр. наук. – М., 2007. – 163 с.

17. Комков С.А. Сроки в трудовом праве Российской Федерации: Монография. – Иркутск: Иркут. Ун-т, – 2006. – 148 с.

18. Кручинин А.В. Юридические факты и их составы, обусловливающие возникновение индивидуальных трудовых правоотношений в России. Дисс. …канд.юр.наук. – Пермь, 2004. – 171 с.

19. Мордачев В.Д. Сроки в трудовом праве: Автореф. дисс. …канд.юр.наук. – Свердловск, 1972. – 18 с.

20. Суханов Е.А. О месте сроков в системе юридических фактов советского гражданского права // – Вестник МГУ, – 1970. №6, – с.70-76.

21. Трубников Н.Н. Проблема времени в свете философского мировоззрения // – Вопросы философии, – 1978. №2, – с.111-112.

22. Философский энсиклопедический словарь. – М.: Советская энциклопедия, – 1989. – 815 с.

23. Хасанов И.А. Время; природа, равномерность, измерение: Монография. – М.: Прогресс – традиция, – 2001. – 304 с.

Ахундов Руслан Натиг оглу,
заочный докторант кафедры трудового и экологического
права юридического факультета Бакинского государственного университета

О ПОНЯТИИ СРОКА В ТРУДОВОМ ПРАВЕ

РЕЗЮМЕ

В статье исследуется соотношение категорий «время» и «срок», а также понятие срока в праве, в том числе в трудовом праве, на основе подходов различных учёных. Автор приходит к выводу, что отсутствие легального определения понятия срока в Трудовом кодексе Азербайджанской Республики следует рассматривать как пробел в законодательстве. В целях восполнения данного пробела предлагается конкретная формулировка: «Срок в трудовом праве — это отрезок времени (период, момент), установленный трудовым законодательством, соглашениями, локальными нормативными актами, коллективными и трудовыми договорами, с наступлением или истечением которого связано возникновение определённых правовых последствий либо совершение определённых юридических действий».

Akhundov Ruslan Natig,
Part-time PhD student, Department of Labor and Environmental Law,
Faculty of Law, Baku State University

ON THE CONCEPT OF TIME PERIOD IN LABOUR LAW

SUMMARY

The article examines the relationship between the categories of “time” and “period”, as well as the concept of a time period in law, including labour law, based on the approaches of various scholars. The author concludes that the absence of a legal definition of the concept of a time period in the Labour Code of the Republic of Azerbaijan should be regarded as a legislative gap. To fill this gap, the author proposes the following definition: “A time period in labour law is a period of time (a period or a moment) established by labour legislation, agreements, local normative acts, collective agreements and employment contracts, the commencement or expiry of which is associated with the occurrence of certain legal consequences or the performance of certain legal actions.”

Redaksiyaya daxilolma tarixi: 11.08.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 15.08. 2026
Çapa qəbul olunma tarixi: 23.08.2026